


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 iyul 2026-cı il №47 (3049) https://mod.gov.az Qiyməti 30 qəpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

2016-cı ilin 15 iyul tarixində Türkiyə Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı Vətənlərini qorumaq üçün həyatlarını qurban vermiş bütün şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edir, onların ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm.

On il əvvəl qardaş Türkiyə müasir tarixinin ən faciəli, eyni zamanda ən şərəfli səhifələrindən birini yazdı. Dövlətçiliyə, konstitusiya quruluşuna, milli iradəyə və demokratik əsaslara qarşı yönəlmiş xain çevriliş cəhdi Türkiyə xalqının sarsılmaz əzmi, mətinliyi və Vətənə sonsuz sədaqəti sayəsində qətiyyətlə dəf edildi. Minlərlə insanın meydanlara axışaraq sinəsini sipər etməsi, dövlətinə, bayrağına və milli dəyərlərinə sahib çıxması əsl qəhrəmanlıq dastanı kimi əbədi olaraq milli yaddaşa həkk olundu.

Sizin qətiyyətli və uzaqgörən liderliyiniz, xalqınızın Sizin ətrafınızda sıx birləşməsi, çağırışlarınıza dərhal və tərəddüdsüz cavab verməsi həmin taleyüklü gecədə ölkənizi böyük faciələrdən xilas edən əsas amillərdən oldu. Sizin rəhbərliyinizlə Türkiyə bu sınaqdan daha da güclənərək çıxdı, öz milli iradəsini və dövlətçilik ənənələrini bütün dünyaya bir daha nümayiş etdirdi.

O tarixi gündə baş verənlər sübut etdi ki, xalq ilə dövlətin birliyi qarşısında heç bir məkrli niyyət, heç bir dağıdıcı qüvvə davam gətirə bilməz. Məhz buna görə də hər il 15 iyulda qeyd edilən “Demokratiya və Milli Birlik Günü” xalqınızın milli həmrəyliyinin, mübarizlik ruhunun, dövlətçilik ənənələrinin və azadlıq iradəsinin simvoludur.

Azərbaycan xalqı və dövləti əziz mirasımız olan “Bir millət, iki dövlət” prinsipini rəhbər tutaraq həmişə olduğu kimi o həlledici anlarda da qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi və onun yanında oldu. Bütün bunlar xalqlarımızın qardaşlığının və birliyinin nə qədər güclü və sarsılmaz olduğunu bir daha təsdiqlədi.

Əminəm ki, nəsillərdən-nəsillərə ərməğan qalan güclü Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da möhkəmlənəcək, strateji müttəfiqliyimiz bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və yeni məzmunla zənginləşməyə davam edəcəkdir.

Əziz Qardaşım, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Türkiyə Respublikasına əmin-amanlıq, firavanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 iyul 2026-cı il

# Təlimlər ordumuzun gücünü daha da artırır



***2026-cı ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarda irimiqyaslı əməliyyat təlimi keçirildi. Təlimdə komando, motoatıcı, mexanikləşdirilmiş və artilleriya birləşmələrinin, təminat hərbi hissələrinin şəxsi heyəti ilə yanaşı, səfərbərlikdən toplanışa cəlb olunan hərbi vəzifəlilər də iştirak etdilər. Təlim bir neçə mərhələdən ibarət idi. İlkin mərhələdə qoşunlar döyüşə hazırolma vəziyyətinə gətirildi. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrindən gələn vəzifəlilərin hərbi hissələrdə qəbulu, onların tibbi müayinədən keçməklə ştat vəzifələrə təyini, əşya-əmlakla təminatı və silahların təhkim olunması ardıcıllığı təlimin bir hissəsi idi.***

Şəxsi heyətin və döyüş texnikalarının dəmiryolu vasitəsilə uzaq məsafələrə daşınması, məhdud görmə şəraitində hərəkəti, əməliyyat və döyüş təyinatlı rayonlara, həmçinin müdafiə hədlərinin tutulması kimi mühüm elementlər həyata keçirildi.

Əməliyyat təlimi zamanı müxtəlif təlim mərkəzlərində və poliqonlarda hərbi hissələrin döyüş atışlı taktiki və taktiki-xüsusi təlimləri həyata keçirməsi nəzərdə tutularaq, təminat tapşırıqları praktiki olaraq yerinə yetirildi.

**(Ardı 6-cı səhifədə)**

## Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib



Donald J. Trump
@realDonaldTrump

breitbart.com/politics/2026/07

EXCLUSIVE: AZERBAIJANI PRESIDENT ILHAM ALIYEV LAUDS TRUMP AS ‘A MAN OF PEACE,’ CREDITS HIM WITH ARMENIA-AZERBAIJAN DEAL

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri paylaşdığı üçün ABŞ Prezidenti Donald Trampa təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib.

Paylaşımda deyilir: “Cənab Prezident, Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və “Breitbart” nəşrinə istinadən Sizi “Sülh İnsanı” kimi xarakterizə etdiyim fikirlərimi paylaşdığınıza görə Sizə təşəkkür edirəm.

Tarixi Vaşinqton Sammitinin birinci ildönümünə bir aydan az vaxt qaldığı bir dövrdə Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün bərqərar olunması istiqamətində əvəzsiz rolunuza görə Sizə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim.

Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha yaxınlaşmasına tarixi töhfə verib.

Siz həqiqətən də Sülh İnsanısınız”.

## Arzulara cavab var: məktubunuz əsgər qardaşlarınıza çatdı!

Vətən səngərdən başlanır, deyirlər. Amma o səngəri qoruyan mərd oğulların mənəvi gücü, dözümü və sarsılmaz vətənpərvərliyi arxa cəbhədən - xalqın onlara olan sonsuz sevgisindən qaynaqlanır. Xüsusilə gənc nəslə hərbi vətənpərvərlik ruhunun aşılanması, onlarda milli təəssübkeşlik hissinin formalaşdırılması bu gün dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Məktəb partalarından başlayan Vətən sevdası gənclərimizin hərbi xidmət dövründə real bir xarakter məktəbinə çevrilir və onları polad iradəli döyüşçü kimi püxtələşdirir. Məhz bu mənəvi vəhdəti vizuallaşdıran layihələr, Vətənin keşiyini çəkən əsgərlərimizlə arxa cəbhədə böyüyən fidanlarımız arasında sarsılmaz bir körpü qurur.

**(Ardı 7-ci səhifədə)**

## “Eternity-2026” təliminin əsas planlaşdırma konfransı keçirilib



Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planına əsasən ölkəmizdə icra olunacaq "Eternity-2026" kompüter dəstəkli komanda-qərargah təliminin əsas planlaşdırma konfransı keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, cari ilin noyabr ayında baş tutacaq təlimdə üç ölkənin hərbi qulluqçuları ilə yanaşı Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və Azərbaycan Dəmir Yollarının əməkdaşları da iştirak edəcəklər.

Qeyd edək ki, təlimin planı iştirakçı ölkələrin ərazisindən keçən strateji obyektlərin və kommunikasiya xətlərinin taktiki səviyyədə mühafizə və müdafiə ssenarisi üzərində qurulub.

Konfransda təlimin mövzusu, məqsədləri, birgə qərargahın tərkibi, ərazidə icra olunacaq taktiki epizodlar və digər təşkilati məsələlər müzakirə olunub.

## Aviasiya bölmələrində təlim-məşq uçuşları keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2026-cı ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya bölmələrində təlim-məşq uçuşları icra edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, uçuş heyətlərindən hazırlıq barədə məruzələr qəbul edildikdən sonra pilotların təlim uçuşunun şərtləri və təhlükəsizlik qaydaları barədə nəzəri bilikləri yoxlanılıb.

Sonra pilotlar aviasiya vasitələrinə nəzarət baxışı keçiriblər.

Təlim-məşq uçuşunun planına əsasən, “JF-17C” (Block-III), "Su-25ML" və "L-39" tipli təyyarələrdən müəyyən edilmiş marşrutlar üzrə gündüz vaxtı havaya qalxma,



yerə enmə, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar yerinə yetirilib.

Hərbi pilotların döyüş hazırlığının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq uçuşlarında əsas diqqət müxtəlif taktiki şəraitlərdə tapşırıqların dəqiq və təhlükəsiz icrasına, həmçinin aviasiya vasitələrinin effektiv döyüş tətbiqi imkanlarının təkmilləşdirilməsinə yönəldilib.

Təlim-məşq uçuşları zamanı hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Baş Qərargah rəisinin Belarus Respublikasına səfəri davam edir





*Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və rəhbərlik etdiyi nümayəndə heyəti bir sıra hərbi obyektlərdə olub.*



Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının Silahlı Qüvvələrinin aviabazasını və əlahiddə desant-hücum briqadasını ziyarət edib. Burada Xüsusi Əməliyyat Qüvvələrinin və radioelektron mübarizə bölmələrinin silahlanmasında olan hərbi və xüsusi texnikalarla tanış olublar.

Plana uyğun olaraq general-polkovnik K.Vəliyev Pilotsuz Aviasiya Komplekslərinin (PAK) Tətbiqi və Hazırlığı Mərkəzinə, eləcə də Dövlət Hərbi-Sənaye Kompleksinin müəssisəsinə baş çəkib.

Mərkəzin fəaliyyəti ilə tanışlıqdan sonra qonaqlara PAK operatorlarının hazırlığı və trenajorlarda iş prinsipləri haqqında məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Minsk şəhərində yerləşən Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin büstünü ziyarət edib, önünə gül dəstəsi qoyaraq xatirəsinə dərin hörmət və ehtiramlarını nümayiş etdiriblər.



# Azərbaycan və Serbiya Yüksək Səviyyəli Birgə İşçi Qrupunun iclası keçirilib

Bakıda Azərbaycan və Serbiya arasında hərbi əməkdaşlıq sahəsində Yüksək Səviyyəli Birgə İşçi Qrupunun iclası keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Hərbi-Texniki Təchizat Baş İdarəsinin rəisi general-mayor Fərid Əliyevin və Serbiyanın Müdafiə Texnologiyaları İdarəsinin rəisi general-mayor Slavko Rakicin rəhbərlik etdiyi nümayəndə heyətləri görüşüb.




Müdafiə Nazirliyi xəbər verir ki, iclasın növbəti mərhələsində müxtəlif xidmət sahələrini təmsil edən altqruplarda "Rəqəmsal Ordu", süni intellekt, kibertəhlükəsizlik, hava hücumundan müdafiə və insansız sistemlər sahələrində, həmçinin birgə təlim və məşqlərin təşkilinə dair müzakirələr aparılıb.

Tərəflər həmçinin hərbi və hərbi-texniki əlaqələrin cari vəziyyətini təhlil edib, əməkdaşlığın genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

# Türkiyənin Baş konsulu: 15 İyul dövlət-xalq birliyinin möhkəm həmrəyliyi sayəsində yazılan qəhrəmanlıq salnaməsidir

*Türkiyənin Naxçıvandakı baş konsulluğunda 15 İyul - Türkiyənin Demokratiya və Milli Birlik Gününün 10 illiyi münasibətilə "İradə bizim, zəfər bizim" adlı tədbir keçirilib.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Naxçıvan Muxtar Respublikasının dövlət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə əvvəlcə qardaş ölkədə 2016-cı il iyulun 15-də baş verən dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəhid olanların və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra iki ölkənin Dövlət himnləri səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub.

Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Asip Kaya çıxış edərək bildirib ki, bu gün Türkiyə Fətullah Gülənin başçılıq etdiyi FETÖ terror təşkilatı üzvlərinin hakimiyyəti ələ keçirmə cəhdinin qarşısının alınmasının 10-cu ildönümünü qeyd edir. Əliyalın insanlar tankların, silahlı qiyamçıların qarşısına çıxaraq dövlətin, qanuni hakimiyyətin müdafiəsini təmin edib, demokratiyaya sadiqliyini göstərib. Bu hadisədə 251 şəhid verən Türkiyə Respublikasının dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan həmin gün cəsur insanlar öz həyatları bahasına da olsa, qiyamçıların hakimiyyəti ələ keçirməsinə imkan verməyiblər. Dövlət-xalq birliyinin möhkəm həmrəyliyi sayəsində dövlət çevrilişi cəhdinin qarşısı alınıb.

Vurğulanıb ki, 15 İyul gecəsi qardaş Azərbaycan öz dəstəyini yüksək şəkildə nümayiş etdirib, bu xəyanəti qınayıb və Türkiyənin yanında olub. Bu gün Türkiyə və Azərbaycan bütün sahələrdə birgə əməkdaşlıq, birlik və qardaşlıq nümayiş etdirir.




Sonra 2016-cı il iyulun 15-də Türkiyədə baş verən dövlət çevrilişi cəhdindən bəhs edən videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Universitetinin dosenti, tarix elmləri doktoru Xəzər Hüseynov iki qardaş ölkənin müxtəlif illərdə eyni tale yaşadığını, lakin xalqlarımızın mətanəti sayəsində dövlət çevrilişi cəhdlərinin qarşısının qətiyyətlə alındığını deyib.

Qeyd olunub ki, demokratik, suveren, müstəqil ölkələrimiz bütün sahələr üzrə inkişaf edir. Möhkəm təməllər üzərində qurulan Türkiyə-Azərbaycan münasibətləri müttəfiqlik səviyyəsinə yüksələrək hər il daha da möhkəmlənir.

Sonra Türkiyənin Demokratiya və Milli Birlik Gününə həsr olunan videoçarxlar nümayiş etdirilib.

Sonda sərgiyə baxış olub.

# Müstəqil dövlətimizin, qalib ordumuzun memarı və qurucusu

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətini yaradaraq, onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir. Dahi Rəhbər, Əbədiyaşar Lider dünya siyasətinə təsir etmək gücündə olan və qlobal miqyasda təhlillər aparmağı bacaran siyasətçi idi. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləridir.



1969-cu ilin 14 iyul tarixində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Ulu Öndər Heydər Əliyevin respublikanın birinci katibi seçilməsi ilə Azərbaycanın inkişaf dövrü başladı. Ümummilli Lider yalnız Azərbaycanın tərəqqi dövrünün müəllifi deyil, həm də xalqımızın qürur və iftixar mənbəyidir. O, SSRİ-nin əsas rəhbər partiya orqanının - Siyasi Büronun üzvü, sonra isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdi. Bu, Azərbaycanda böyük ruh yüksəkliyi yaratmışdı. İlk dəfə idi ki, Azərbaycan oğlu SSRİ-nin hakimiyyət iyerarxiyasında yüksək mövqe tuturdu. Həmin dövrdə Ümummilli Lider bir sıra ittifaqmiqyaslı layihələri Bakıya yönəltdi. Ulu Öndərin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrildi. Ulu Öndər Heydər Əliyev 2001-ci il - yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində deyirdi: “Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri, məhz Azərbaycan idi”.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən gördüyü nəhəng işlər, fitri təşkilatçılıq bacarığı Dahi Liderin şöhrətini daima artırmışdır.

Bəli, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Dünya miqyasında ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, köklü dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin gücləndirilməsi, real siyasi amilə çevrilməsidir. Ulu Öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşdı. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratdı, tarix isə Böyük Öndərin bu statusunu bütün mərhələlərdə qorudu. Ötən əsrin 60-cı illərinədək aqrar ölkəsi kimi tanınan Azərbaycanın yeganə sənaye mənbəyi neft idi. Lakin məhz Heydər Əliyev hakimiyyətdə olduğu ilk illərdə qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri sayəsində insanların rifah halı daha da yaxşılaşdı.

Ulu Öndər Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirməklə, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratmışdı. Bu hadisə azərbaycanlıların vətənpərvərlik ruhunun, döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynadı. Ordu quruculuğunda bu hərbi təhsil ocağının rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra Hərbi liseyin məzunları ordumuzun yaranmasında, Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə oldu. İstər Birinci Qarabağ, istərsə də İkinci Qarabağ müharibələrində vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu Hərbi liseyin yetirmələridir.



*H.Əliyev C.Naxçıvanski adına internat-məktəbin şagirdləri ilə. 1980-ci il.*

1993-cü ildə xalqın tələbi və təkidi ilə ölkəyə yenidən rəhbərlik edən Ümummilli Lider faktiki olaraq Azərbaycanı, dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı, növbəti fəlakətlərdən xilas etdi. Və xilaskarlıq missiyasını yerinə yetirən Ulu Öndər Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və sair bəlalardan xilas oldu. Ölkədə sabitlik və əmin-amanlıq təmin edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı. Azərbaycanın iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən böyük neft sazişləri imzalandı, iqtisadi, sosial və siyasi islahatlar strategiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başlandı. Yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı. Dağınıq ordu mütəşəkkil, nizami orduya çevrildi. Ordu vahid komandanlığa tabe oldu.

Hər bir arzunun arxasında əməl, səbir, məharət, siyasi bacarıq dayanır. Ulu Öndər bizi Böyük Qələbəyə inandırırdı, çünki özü inanırdı. Onun hər bir çıxışı hər birimizdə inam yaradırdı. Bütün həyatını erməni millətçiləri və separatçıları ilə mübarizəyə həsr edən Dahi Siyasətçi qəti şəkildə bildirirdi: “Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik”. O, çox yaxşı bilirdi ki, Azərbaycanın müstəqilliyinə zidd olan ölkələr, qüvvələr, cəmiyyətlər var və onlar işğalçını müdafiə edir. O deyirdi: “Dünya da görür ki, Ermənistan Azərbaycana təcavüz edir. Azərbaycana qarşı olan bu təcavüz ədalətsizlikdir. Bu, misli görünməmiş bir şeydir. Ancaq bunu dünyaya sübut etməliyik ki, Ermənistan Azərbaycana bu cür təcavüz edib və Ermənistan təcavüzkardır - bu asan məsələ deyildir. Çünki dünyada Ermənistanı dəstəkləyən, ona kömək edən, dayaq duran böyük ölkələr var”. Biz hər zaman bu ikili standartlarla rastlaşırıq. Ancaq heç vaxt ruhdan düşmək və bir an belə mübarizədən geri çəkilmək olmaz. Ulu Öndər hər zaman bu düşüncədə olub, yorulmadan, usanmadan, hətta saatlarla, günlərlə erməni işğalından, xalqımıza qarşı törədilən soyqırımından, münaqişənin əsl səbəbi və mahiyyətindən danışıb, məruzələr edib, müzakirələr aparıb. O, bütün varlığı ilə inanırdı və həmişə vurğulayırdı: “Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik. Dünya belə qalmayacaq. Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi - Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz, Azərbaycan Prezidenti heç vaxt bununla razı ola bilməz!” O, hər zaman deyirdi: “Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır”.

Birinci Qarabağ müharibəsi zamanı cəsur, igid hərbçilərimiz olsa da, vahid komandanlığa tabe olan ordu, hərbi nizam-intizam, güclü iqtidar yox idi. Ölkədə yaranmış xaos, anarxiya vəziyyətində nizami ordudan söhbət belə gedə bilməzdi. Lakin Ulu Öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də islahatlara başlanıldı. 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinə həsr olunmuş təntənəli yığıncaqlardan birində qeyd etdiyi kimi: “Bu gün biz cəsarətlə deyə bilərik ki, Azərbaycanın güclü Silahlı Qüvvələri var, Azərbaycanın qəhrəman Milli Ordusu var, Azərbaycanın dəyərli generalları, zabitləri var, Azərbaycanın mətin, qəhrəman, hazırlıq keçmiş əsgərləri var”. Ümummilli Lider 2001-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışına həsr olunmuş mərasimdə çıxışı zamanı Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrini misal çəkir, Azərbaycan əsgərinin məhz Türk əsgərinə bənzəməsini xüsusi ilə vurğulayırdı: “Azərbaycan əsgəri gərək hər şeydə türk əsgərinə bənzəməyə çalışsın. Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərdən əlavə, ən yüksək keyfiyyəti Vətənə, millətinə, torpağına daim sədaqət hissi ilə yaşaması və xidmət etməsidir. Bu, hər bir ölkənin əsgərinin borcudur”.

Bu ideyanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev daha da inkişaf etdirərək güclü ordu yaratdı. Elə bir ordu ki, həm cəsarəti, həm igidliyi, həm də humanistliyi ilə dünyada yeni bir əsgər, zabit obrazı yaratdı. Ulu Öndər deyirdi: “Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır”. Prezident, Ali Baş Komandan İlham Əliyev qeyd edirdi ki, sülhə nail olmağın əsas yolu siyasi və diplomatik yoldur. Lakin bu mümkün olmadıqda, Azərbaycan öz ərazi bütövlüyünü hərbi yolla bərpa etmək hüququnu özündə saxlayır. 44 günlük Vətən müharibəsi və onun nəticəsi olan 10 noyabr üçtərəfli Bəyanatı isə yeni reallığın əsasına çevrildi. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan bu sözlərini təkrarlayaraq əmr verdi: “Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!” Rəşadətli ordumuz öz canları, qanları hesabına Vətəni erməni işğalından azad etdi, Şanlı Qələbə çalaraq Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Biz fəxr edirik ki, Vətən yolunda, doğma torpaqlarımızda erməni faşizminin məhv edilməsi və bir daha baş qaldırmaması üçün özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, ruhu bizim qəlbimizdə daim yaşayacaqdır!

Ümummilli Lider Heydər Əliyev öz çıxışlarında bildirirdi: “Güclü ordu dövlətin müstəqilliyinin təminatçısıdır, qarantıdır”. Vətən müharibəsi bu fikri bir daha sübut etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Şanlı Qələbə 44 gündə keçirilmiş əks-hücum hərbi əməliyyatları ordumuzun qüdrəti ilə yanaşı, ölkəmizin də gücünü bütün dünyaya göstərdi.

**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

# Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu hərbi quruculuq siyasəti güclü Azərbaycan Ordusunun təməlini təşkil edir





İyulun 14-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-siyasi Sənədlər Arxivinin və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 57-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev irsi – Güclü dövlət, Qalib Ordu, Zəngin mədəniyyət” mövzusunda tədbir keçirilib. Tədbir çərçivəsində “Heydər Əliyev və Azərbaycan milli mədəniyyəti” silsiləsindən sənədlər toplusunun təqdimatı olub.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin rəhbərliyi və müəllim heyəti, Milli Məclisin deputatları, dövlət qurumlarının nümayəndələri, elm və mədəniyyət xadimləri, siyasi partiyaların və qeyri-hökumət təşkilatların təmsilçiləri, ziyalılar və media nümayəndələri iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, Ulu Öndərin muzeyini, həmçinin liseyin ərazisində ucaldılmış Cəmşid Naxçıvanskinin büstünü ziyarət ediblər. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbir hərbi orkestrin müşayiəti ilə Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.



Tədbiri giriş sözü ilə açan Milli Müdafiə Universitetinin rektorunun elm və təhsil üzrə müavini general-mayor Arif Həsənov bildirib ki, Azərbaycanda ordu quruculuğunun təməlinin qoyulması 1971-ci ilə - Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına təsadüf edir. Qeyd olunub ki, xalqımıza uzun illərdən sonra Qələbə sevincini yaşadan döyüşçülərin əksər hissəsi məhz Ulu Öndərin çətinliklərə rəğmən əzmlə, fədakarlıqla yaratdığı liseyin məzunlarıdır.







O, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu hərbi quruculuq siyasətinin bu gün güclü Azərbaycan Ordusunun təməlini təşkil etdiyini bildirib. Vurğulanıb ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bu siyasət uğurla davam etdirilərək Azərbaycanın müdafiə qüdrəti daha da möhkəmləndirilib, Ordumuz tarixi Zəfərə imza atıb və bu irsin davam etdirilməsi hər bir Azərbaycan hərbçisi üçün böyük şərəfdir. General-mayor qeyd edib ki, İctimai-Siyasi Sənədlər Arxivinin nəşr olunmuş kitablarının məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təqdim olunması kursantların tarixi yaddaşının, milli-mənəvi dəyərlərə bağlılığının, vətənpərvərlik ruhunun və dövlətçilik ənənələrinə hörmət hissinin daha da möhkəmlənməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova çıxışında bildirib ki, arxivlər milli yaddaşı yaşadan və gələcək nəsillərə çatdıran ən etibarlı mənbələrdir. O qeyd edib ki, təqdim olunan “Heydər Əliyev və Azərbaycan milli mədəniyyəti” silsiləsindən sənədlər toplusu Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə elm, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafı istiqamətində həyata keçirdiyi siyasəti arxiv sənədləri əsasında əks etdirir və həmin dövrün dövlət idarəçiliyini öyrənmək üçün mühüm elmi əhəmiyyətə malikdir.

Çıxışının sonunda Elmira Ələkbərova bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik və milli-mədəniyyət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun rəhbərliyi ilə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib, işğaldan azad olunmuş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bu gün azad Qarabağda yenidən Azərbaycan mədəniyyəti yaşayır, milli musiqimiz səslənir, teatr və incəsənətimiz öz doğma yurduna qayıdaraq Zəfər salnaməsini yazır.



Daha sonra 1-ci dərəcəli dövlət müşaviri, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə, Milli Məclisin deputatları - Hicran Hüseynova, Hikmət Babaoğlu, Məlahət İbrahimqızı, Jalə Əliyeva, Ceyhun Məmmədov liseyin ərazisində ucaldılmış Cəmşid Naxçıvanskinin büstünün müəllifi, görkəmli heykəltaraş, Xalq rəssamı Ömər Eldarov, eləcə də yazıçı-publisist, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəraf Cəlilli çıxış edərək Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin, elm və mədəniyyətin inkişafı, eləcə də milli ordunun formalaşdırılması istiqamətində həyata keçirdiyi uzaqgörən siyasətdən bəhs ediblər. Çıxışçılar həmin siyasi kursun bu gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycanın müdafiə qüdrətinin daha da möhkəmləndirildiyini, ordumuzun müasir tələblərə uyğun inkişaf etdiyini və milli-mədəni irsin qorunması istiqamətində mühüm uğurlar əldə olunduğunu vurğulayıblar. Natiqlər təqdim olunan nəşrlərin Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin, milli-mənəvi dəyərlər və mədəniyyət siyasətinin arxiv sənədləri əsasında öyrənilməsi baxımından mühüm elmi və tarixi əhəmiyyət daşıdığını qeyd ediblər.

Tədbir zamanı “Heydər Əliyev və Azərbaycan milli mədəniyyəti” silsiləsindən sənədlər toplusu Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kitabxanasına hədiyyə olunub. Bununla yanaşı, Hərbi Liseyin yaradılması ilə bağlı Qərarın, onun yaradılması üçün görüləcək işləri və verilən tapşırıqları əks etdirən sənədlərin surətləri Hərbi Liseyin muzeyinə hədiyyə edilib.



Həmçinin Ulu Öndərin 100 illiyi ərəfəsində hazırlanmış döş nişanı Hərbi Liseyin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyevə təqdim olunub.

Çıxış edən polkovnik Anar Mirzəyev belə mötəbər tədbirin Ulu Öndərin yadigarı olan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilməsinə görə öz adından, bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib. Vətənə xidmətinin başlanğıcının Cəmşid Naxçıvanski adına Hərbi Liseydən keçdiyini deyən Vətən Müharibəsi Qəhrəmanı burada Vətənə, millətə layaqətli övladlar yetişdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının azadlığı, müstəqilliyi və suverenliyi uğrunda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələri böyük fədakarlıq göstərib, 200-dən çox məzun Vətən yolunda şəhidlik zirvəsinə ucalıb. Onların qəhrəmanlığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, liseyin məzunları sırasından 11 nəfər “Milli Qəhrəman”, 19 nəfər isə “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adlarına layiq görülüb.

Tədbir çərçivəsində, həmçinin İctimai-Siyasi Sənədlər Arxivində mühafizə olunan 1969-1982-ci illərə aid sənədlər əsasında hazırlanmış, Ulu Öndər Heydər Əliyevin şərəfli ömür yolu və dövlətçilik fəaliyyətindən bəhs edən sənədli xronika nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib, vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim olunub.

# Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsi yad edilib

Tovuz döyüşlərinin ildönümü münasibətilə Azərbaycanın Milli Qəhrəmanları general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin xatirəsi yad edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin bir qrup hərbi qulluqçusu tərəfindən şəhidlərin məzarları ziyarət edilərək üzərinə güllər qoyulub, xatirələri hörmət və ehtiramla anılıb.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub.





Anım mərasimində Milli Qəhrəmanların keçdiyi şərəfli ömür yolundan bəhs edilib, onların həyatının gənc hərbçilər üçün örnək olduğu xüsusi vurğulanıb.

Qeyd edilib ki, Vətən uğrunda şəhid olanlar döyüşlərdə göstərdikləri şücaətə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən müxtəlif orden və medallarla təltif olunublar, həmçinin şəhidlərin ailə üzvləri dövlətimiz tərəfindən daim yüksək diqqət və qayğı ilə əhatə olunur.

# Tovuz döyüşlərinin ölməz şəhidləri

2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində baş verən döyüşlər xalqımızın yaddaşında xüsusi yer tutdu. Ermənistan silahlı qüvvələrinin təxribat xarakterli hücumlarına qarşı Azərbaycan Ordusu qətiyyətlə cavab verdi və mövqelərimizin müdafiəsi uğrunda ağır döyüşlər getdi. Həmin günlərdə hərbçilərimiz yüksək peşəkarlıq, cəsarət və Vətənə sonsuz sədaqət nümayiş etdirdilər. Tovuz döyüşləri bir daha göstərdi ki, Azərbaycan əsgəri torpağın və xalqın təhlükəsizliyinin keşiyində ayıq-sayıq dayanır.

Döyüşlər zamanı Tovuz istiqamətində canlarını fəda edən şəhidlərimiz sonradan başlayan Vətən müharibəsinin ruhunu və qələbə əzmini gücləndirən igidlər kimi tarixə düşdülər. Onların hər biri Vətənin müdafiəsini həyatından üstün tutaraq xalqımıza əbədi qürur hissi yaşatdılar.

Tovuz döyüşlərində şəhid olan 12 hərbçimiz Azərbaycanın hərb tarixində silinməz iz qoydu. Onların arasında general da vardı, zabit də, gizir də, əsgər də. Fərqli bölgələrdən gələn bu insanlar bir amal uğrunda - Azərbaycanın təhlükəsizliyi və ərazi bütövlüyü naminə çiyin-çiyinə vuruşdular. Bu gün həmin şəhidlərin xatirəsi ehtiramla yad edilir, göstərdikləri şücaət gənc nəslə nümunə kimi təqdim olunur.

General-mayor Polad İsrayıl oğlu Həşimov 1975-ci il yanvarın 2-də Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi peşəni seçərək ali hərbi təhsil alıb və ömrünü Azərbaycan Ordusunda xidmətə həsr edib. Uzun illər ön xətt bölmələrində müxtəlif vəzifələrdə xidmət edən Polad Həşimov peşəkarlığı, tələbkarlığı və şəxsi heyətə qayğıkeş münasibəti ilə seçilib. 2020-ci il iyulun 14-də Tovuz istiqamətində gedən döyüşlər zamanı döyüş əməliyyatlarına rəhbərlik edərkən qəhrəmancasına şəhid olub. General rütbəsində şəhid olması xalq tərəfindən böyük kədər və eyni zamanda, böyük qürur hissi ilə qarşılandı. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Polad Həşimov bu gün də cəsur general və əsl zabit nümunəsi kimi ehtiramla xatırlanır.

Polkovnik İlqar Anzor oğlu Mirzəyev 1973-cü il mayın 8-də Gəncə şəhərində anadan olub. Gənc yaşlarından hərb sənətinə maraq göstərən İlqar Mirzəyev ali hərbi təhsil aldıqdan sonra müxtəlif hərbi hissələrdə xidmət edib. Peşəkar zabit kimi uzun illər ərzində komandirlik etdiyi bölmələrdə yüksək döyüş hazırlığının təmin olunmasına xüsusi diqqət yetirib. Xidməti dövründə məsuliyyətli və vətənpərvər zabit kimi tanınıb.

Tovuz döyüşləri zamanı döyüş bölgəsində əməliyyatların uğurla icrasına rəhbərlik edib. İyulun 14-də xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.




Mayor Anar Gülverdi oğlu Novruzov 1976-cı il mayın 12-də Masallı rayonunun Ərkivan qəsəbəsində yerləşən Abbaslı məhəlləsində anadan olub. Hərbi xidmətə gənc yaşlarından başlayaraq müxtəlif qoşun hissələrində xidmət edib. O, xidmət etdiyi kollektivdə intizamlı, bacarıqlı və peşəkar zabit kimi tanınıb. Döyüş hazırlığının yüksəldilməsi istiqamətində gördüyü işlər və şəxsi heyətlə səmimi münasibəti ona böyük hörmət qazandırmışdı.

Tovuz döyüşləri zamanı mayor Anar Novruzov ön mövqelərdə döyüş tapşırıqlarının yerinə yetirilməsində fəal iştirak edib. Düşmən hücumlarının qarşısının alınması zamanı şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.

Mayor Namiq Hajan oğlu Əhmədov 1984-cü il noyabrın 8-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. Hərbi xidmət illərində daim öz üzərində çalışan, peşəkarlığını artıran və komandirlərinin etimadını qazanan zabitlərdən biri idi.

2020-ci ilin iyulunda gedən döyüşlər zamanı şəxsi heyətlə birlikdə ön mövqelərdə xidmət aparırdı. Verilən döyüş tapşırıqlarını yüksək məsuliyyətlə yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Namiq Əhmədovun şərəfli xidmət yolu Azərbaycan zabitinin Vətənə sədaqətinin və fədakarlığının parlaq nümunələrindən biri hesab olunur.

Baş leytenant Rəşad Rəşid oğlu Mahmudov 1992-ci il iyulun 2-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. Hərb peşəsini seçərək gənc yaşlarından Azərbaycan Ordusunda xidmətə başlayıb. Qısa müddətdə peşəkar zabit kimi formalaşan Rəşad xidməti dövründə məsuliyyəti, cəsarəti və hərbi biliyi ilə seçilib. Komandirləri onun intizamlı zabit olduğunu bildirirdilər.

Tovuz döyüşləri zamanı ön mövqelərdə xidmət aparan baş leytenant Rəşad Mahmudov düşmənin hücumlarının qarşısının alınması uğrunda gedən döyüşlərdə böyük igidlik göstərərək şəhid olub. Ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edilib. Qısa ömür yaşamasına baxmayaraq, Vətən qarşısındakı borcunu ləyaqətlə yerinə yetirərək Azərbaycanın fəxrinə çevrilib.

Gizir İlqar Ayaz oğlu Zeynallı 1995-ci il iyulun 9-da Tovuz rayonunun Cəlilli kəndində anadan olub. Hərbi xidmətə böyük həvəslə başlayan İlqar Zeynallı peşəkar hərbi qulluqçu kimi daim öz üzərində çalışır, döyüş hazırlığını artırmağa xüsusi diqqət yetirirdi. Xidmət etdiyi hərbi hissədə çalışqanlığı, nizam-intizamı və vətənpərvərliyi ilə seçilirdi.

Tovuz döyüşləri zamanı son ana qədər silahdaşları ilə birlikdə düşmənə qarşı mübarizə apararaq şəhidlik zirvəsinə ucalan İlqar adını Azərbaycan hərbi salnaməsinə yazdırıb. Ölümündən sonra “Vətən uğrunda” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif edilib. Onun xidmət yolu gənc hərbçilər üçün Vətənə sədaqətin və Hərbi Andın müqəddəsliyinin nümunəsidir.

Gizir Yaşar Vasif oğlu Babayev 29 iyun 1987-ci ildə Ağstafa rayonunun Köçəsgər kəndində anadan olub. Uzun illər Azərbaycan Ordusunda xidmət edən Yaşar xidmət etdiyi müddətdə məsuliyyətli münasibəti, çevik qərar qəbul etməsi və döyüş yoldaşlarına dəstəyi ilə böyük hörmət qazanıb.

O, Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi təxribatın qarşısının alınması zamanı ön mövqelərdə böyük şücaət göstərərək iyulun 14-də igidliklə şəhid olub. Ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “İgidliyə görə” medalı ilə təltif edilib.

Çavuş Vüqar Lətif oğlu Sadıqov 14 may 1987-ci ildə Ağstafa rayonunun Göyçəli kəndində anadan olub. Azərbaycan Ordusunda xidmət etdiyi müddətdə hərbi nizam-intizama ciddi riayət edib, verilən tapşırıqları yüksək məsuliyyətlə yerinə yetirib. Silahdaşları onu sakit təbiətli, mərd və etibarlı döyüş yoldaşı kimi tanıyıblar.

Tovuz istiqamətində gedən döyüşlər zamanı çavuş Vüqar Sadıqov Vətənin müdafiəsi uğrunda gedən ağır döyüşlərdə son nəfəsinədək döyüş mövqeyini tərk etməyib və Hərbi Anda sadiq qalaraq şəhidlik zirvəsinə yüksəlib. Ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edilib. Onun şücaəti Azərbaycan əsgərinin Vətən sevgisinin və fədakarlığının daha bir parlaq nümunəsi kimi tarixə həkk olunub.

Baş əsgər Elşad Dönməz oğlu Məmmədov 11 yanvar 1996-cı ildə Tovuz rayonunun Ağdam kəndində anadan olub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət illərində intizamlı davranışı, peşəkarlığı və verilən tapşırıqları məsuliyyətlə yerinə yetirməsi ilə seçilib. Silahdaşları onu cəsur və etibarlı döyüş yoldaşı kimi xatırlayırlar.

Tovuz döyüşləri zamanı ön xətdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olan Elşad Məmmədovun göstərdiyi igidlik Azərbaycan hərbçisinin Vətənə sədaqətinin və fədakarlığının parlaq nümunəsidir. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə “Hərbi xidmətlərə görə” və “Vətən uğrunda” medalları ilə təltif olunub.

Əsgər Elçin Arif oğlu Mustafazadə 26 sentyabr 1992-ci ildə Ağstafa rayonunun Həsənsu qəsəbəsində anadan olub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Elçin Mustafazadə hərbi xidmətini məsuliyyətlə yerinə yetirən, döyüş hazırlığına xüsusi önəm verən hərbçilərdən idi. O, xidmət etdiyi kollektivdə səmimiyyəti, nizam-intizamı və Vətənə olan sevgisi ilə seçilib.

Tovuz istiqamətində gedən döyüşlərdə Vətənimizin müdafiəsi uğrunda aparılan əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən, “Hərbi xidmətlərə görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib.

Əsgər Nazim Əfqan oğlu İsmayılov 1996-cı ildə Ağstafa rayonunun Kolxəlfəli qəsəbəsində anadan olub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edən Nazim İsmayılov Hərbi Andına daim sadiq qalan, məsuliyyətli və vətənpərvər hərbçilərdən biri idi. Döyüş hazırlığında fəallığı və xidmətə ciddi münasibəti ilə seçilib. 2020-ci ilin iyul döyüşlərində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısının alınması zamanı ön mövqelərdə son nəfəsinədək döyüş tapşırığını yerinə yetirərək şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra “İgidliyə görə” və “Vətən uğrunda” medalları ilə təltif olunub.

Əsgər Xəyyam Məhəmməd oğlu Daşdəmirov 22 fevral 2002-ci ildə İsmayıllı rayonunun Balik kəndində anadan olub. 2020-ci ilin mayında həqiqi hərbi xidmətə çağırılan Xəyyam gənc olmasına baxmayaraq, Vətən qarşısındakı borcunu böyük məsuliyyətlə yerinə yetirib, hərbi xidmətə xüsusi həvəslə yanaşıb.

O da Tovuz döyüşlərində şəhid olan ən gənc hərbçilərdən biridir. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Hərbi xidmətlərə görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib. Xəyyam Daşdəmirovun qısa, lakin şərəfli ömür yolu Azərbaycan gənclərinin Vətənə sonsuz sevgisinin və fədakarlığının daha bir simvoluna çevrilib.

Tovuz döyüşlərində şəhid olan 12 igid hərbçinin hər biri Vətənə sədaqətin, Hərbi Anda bağlılığın və fədakarlığın nümunəsini öz əməllərində göstərdi. Onların şücaəti yalnız Tovuz istiqamətində qazanılan uğurla məhdudlaşmadı. Bu döyüşlər Azərbaycan xalqının milli birliyini daha da möhkəmləndirdi, ordumuza olan inamı artırdı və cəmi iki ay sonra 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qazanılan tarixi Zəfərə aparan yolu daha da işıqlandırdı.

Bu gün Tovuz şəhidlərinin adları böyük ehtiramla anılır, onların şərəfli ömür yolu gənc nəslə vətənpərvərlik nümunəsi kimi aşılanır. Onların müqəddəs xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Təlimlər ordumuzun gücünü daha da artırır

(Əvvəli 1-ci səhifədə)

Eyni vaxtda müxtəlif təlim mərkəzlərinə və təlimin keçirilməsi üçün nəzərdə tutulmuş məntəqələrə şəxsi heyətin və döyüş texnikalarının təyin edildiyi vaxtda gəlməsi də yüksək səviyyədə təmin olunmuşdu. Döyüş texnikalarının "səfərə" vəziyyətinə gətirilərək avtomobil yollarında və dəmiryolu stansiyalarında vaqonlara yüklənməsi və boşaldılması zamanı maskalanmaya da diqqət ayrılmışdı. Hərbi texnikaları və şəxsi heyəti daşıyan eşelonların ara məsafələrinə də ciddi riayət olundu. Ağır artilleriya silahlarının, zirehli döyüş texnikalarının daşınması zamanı kalonlarla sıra düzülüşü də tələblərə uyğun olaraq ardıcıl şəkildə həyata keçirildi.





Əsgərin döyüş hazırlığı sıradan bəlli olduğu kimi, istər komando, istər motoatıcı, istər artilleriya, istərsə də tank bölmələrinin döyüş hazırlıqlarının yüksək olmasını "səfərə" düzülüşündən hiss etmək olurdu. Təlimə cəlb olunan bütün birləşmələr cəmləşmə rayonuna vaxtında çatmış və qarşıya qoyulan tapşırığı müvəffəqiyyətlə icra etmişdi.

Daha bir təlim gedən ərazi dağlardan, dərələrdən və düzəngahdan ibarətdir. Əraziyə uyğun şəxsi heyətin və döyüş texnikalarının düzülüşü təşkil olundu. Təlimin rəhbər heyəti komanda müşahidə məntəqəsindən xəritə üzərində şərti düşmənin yerləşdiyi yerin koordinatını çıxarır, rabitə ilə müvafiq komandalar verir, eyni anda bölmənin fəaliyyətinə nəzarət edilirdi. Bölmələr nəzərdə tutulmuş məsafələrdə döyüş xəttinə açılaraq üzü dağın döşündəki hədəfə (şərti düşmənə) doğru döyüş düzülüşü ilə düzüldülər. Ərazi boyunca düzülən əsgərlər növbəli müşahidə aparırdılar. Döyüş düzülüşünə açılan bölmələr təlim-atış çalışmasını yerinə yetirmək mərhələsinə çatana qədər əsgərlər növbəti komandanı gözləyir, öncədən müəyyən edilmiş qaydalara uyğun olaraq maneələr zolağını keçməlidirlər. Müdafiədən hücuma keçən bölmələr əvvəlcə qarşıdakı mina sahəsindən keçid açaraq, piyada bölmələrinin döyüş texnikalarının hərəkətini təmin etmək üçün hazır vəziyyətdə komanda gözləyirlər. İstehkamçılar yolu minalardan təmizləyənə qədər pulemyotçu və atıcı əsgərlər tərəfindən qorunurlar. Keçid açılandan sonra yolun açıq olduğunu bildirən xüsusi lent, yaxud "mina yoxdur" yazılmış kiçik lövhələrlə işarələnir. Keçidi əsgərlər növbə ilə əyilə-əyilə ziqzaq qaçışlarla keçməlidirlər.

Rəhbər heyəti komanda məntəqəsində müşahidə aparmaqla əsgərlərin hərəkətlərini diqqətlə izləyir, təlim zamanı onların yol verdikləri nöqsanlar və nümunə olacaq hərəkətlər barədə qeydlər aparırlar. Polkovnik Yaşar Səfərov təlimin gedişi ilə bağlı bəzi məlumatları bizimlə bölüşdü:

- Bu cür genişmiqyaslı taktiki-atış təlimi əsgərlərin yaddaşında daha yaxşı qalır. Belə təlimlər hərbi bilik və bacarıqlarla yanaşı, güc, əzmkarlıq və möhkəm iradə tələb edir. Əsgərlər tam döyüş təchizatı ilə uzun yol gəlir, qısa sıçrayışlarla maneələr zolağını keçirlər. Bölmələr bu təlimə cəlb olunmadan əvvəl taktiki, atış, mühəndis, kəşfiyyat və başqa hazırlıq dərslərini keçiblər. Əsgərlər həmin dərslərdə təlim zamanı qarşılaşacaqları bütün maneələri, taktiki gedişləri dərindən mənimsəyiblər. Təlim zamanı isə həm komandir heyətinin, həm də əsgərlərin nəzəri bilikləri sınaqdan keçirilir. Onların döyüş vərdişləri daha da möhkəmlənir.





Təlimin sonuncu günü döyüş atışları yerinə yetirildi. Tapşırığın icrası üçün şəxsi heyətə sursat paylanıldı. Əvvəlcədən əsgərlərə çatdırıldı ki, komanda olmadan avtomatın yuvasına mərmi yerləşdirmək və atəş açmaq olmaz. Bölmələr şərti düşmənin yerləşdiyi əraziyə yaxınlaşdıqca təlimin həyəcan dolu anları başlayırdı. Ərazidən ağ-qara tüstülər qatı duman kimi havaya qalxırdı. Bir anlıq ərazi görünməz oldu. Ardınca avtomat, snayper və pulemyotlardan açılan atəş səsləri ətrafa dalğa-dalğa yayıldı...

Daha bir yenilənmiş təlim mərkəzində təlim davam edir. "Əməliyyat Komando birləşmələrinin gücləndirmə vasitələri ilə birlikdə dağlıq-meşəlik ərazilərdə hücumun keçirilməsi ilə qarşılıqlı əlaqədə olan birləşmə hədəfinin ələ keçirilməsi, gündüz və gecə hücum əməliyyatının aparılması, yaşayış məntəqələrinin düşməndən təmizlənməsi" özlüyündə bir daha şəxsi heyətin döyüş vərdişlərinin artırılmasına xidmət edirdi. Digər təlim mərkəzlərində də taktiki xüsusi təlimlər, döyüş atışları, təminat tapşırıqları yüksək səviyyədə icra edilmişdi.



Komanda müşahidə məntəqəsində rəhbər heyət zabitin məruzəsini dinləyirdi. Zabit davam edən taktiki-xüsusi təlimin mərhələlərini açıqlayırdı. Birinci mərhələdə döyüş həyəcanı ilə təlim rayonuna çıxarılmış bölmələr əməliyyata uyğun qərar qəbul etməklə fəaliyyətləri icra etdiyini bildirdi. Bölmələr cəmləşmə rayonuna irəliləyərək, müdafiə olunan şərti düşmən üzərinə hücum edib, müqavimət göstərən qüvvələri darmadağın edirdi. Eləcə də hədəflərinin ələ keçirilməsini planlaşdırırdılar.

Düşmənin əks-hücumunun dəf edilməsi, geri çəkilərkən onun tamamilə məhv edilməsi üçün görüləcək tədbirlər, əlverişli mövqelərin tutulması, yaşayış məntəqələrinin düşməndən təmizlənməsi də təlimin əsas elementlərindən idi.



Təlimlərdə Azərbaycan Ordusunun arsenalında olan müasir pilotsuz uçuş aparatları, radioelektron mübarizə və radiotexniki kəşfiyyat vasitələri, yüksək dəqiqlikli silah sistemləri kompleks şəkildə tətbiq edilib. Hava və radiotexniki kəşfiyyat tapşırıqlarının, praktiki döyüş atışlarının yerinə yetirilməsində şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirirdi.

Cəlb olunan bölmələr arasında tank və mexanikləşdirilmiş bölmələrin fəaliyyətləri, onların bacarıqla idarəetmə səriştələrini təkmilləşdirmiş, boş atım və təqlidetmə vasitələrindən istifadə etmək, qarşıdakı hədəflərə atışların uğurla yerinə yetirilməsi mərhələsi diqqət çəkən oldu.

Təlimin gedişində döyüş fəaliyyətinin yeni üsul və metodları sınaqdan keçirildi, komandirlərin müstəqil qərar qəbuletmə səriştələri, şəxsi heyətin yüksək dağlıq və meşəlik ərazilərdə, yaşayış məntəqələrində döyüşaparma bacarıqları və çöl vərdişləri təkmilləşdirildi.

Polkovnik Yaşar Səfərov bildirdi ki, bölmələrin müntəzəm olaraq təlim mərkəzlərinə çıxarılması, onların çöl-səhra şəraitində bir neçə gün qalması, həmçinin cəlb olunan şərti düşmən hədəfləri gerçək döyüşü xatırladır. Praktiki olaraq əsgərlər tərəfindən hədəflərə real atəşlərin açılması onların döyüş hazırlığının daha da artırılmasına xidmət edir. Bugünkü təlimin də mahiyyəti budur. Həm fərdi qaydada, həm də qrup halında məhv ediləcək hədəflər təlim iştirakçıları tərəfindən dəqiqliklə sıradan çıxarıldı.

Təlimin sonunda komandir və qərargahların fəaliyyətləri ayrı-ayrılıqda müsbət qiymətləndirildi. Bu da təlimin uğurla başa çatması idi.

2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı 30 ilə yaxın Ermənistan ordusu tərəfindən işğalda saxlanılan ərazilərin azad edilməsi ilə başa çatdı. Müharibə zamanı döyüşdə hər bir əsgərin, zabitin qazanılmış qələbənin təməlində onun güclü döyüş hazırlığı dayanırdı.

Tarixi Zəfərdən sonra da ordumuzun döyüş və mənəvi hazırlığının gücləndirilməsi daha da geniş xarakter aldı. Günbəgün yenilənən təlim meydanları xalqımızın və dövlətimizin hər zaman xarici təhlükədən qorunmasına etibarlı zəmin yaradır.

İrimiqyaslı əməliyyat təliminin gedişini izləyən Müdafiə Nazirliyinin rəhbər heyəti birləşmə və bölmələrin döyüş fəaliyyətini müsbət qiymətləndirdi, təlimdə qarşıya qoyulan tapşırıqların tam həcmdə icra edildiyi və məqsədlərə nail olunduğu qeyd edildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Əsgərə məktub*

# Arzulara cavab var: məktubunuz əsgər qardaşlarınıza çatdı!

(Əvvəli 1-ci səhifədə)

Strateji əhəmiyyətli mövqelərdə yerləşən hərbi xidmət yerlərinə baş çəkmək, o müqəddəs sərhəd postlarına daxil olmaq üçün Əlahiddə Ümumqoşun Ordunun nümayəndəsi polkovnik Naib Cəfərovla birlikdə igidlərimizin dayandığı o uca postlara tərəf hərəkət etdik. Dağların qoynundan keçən çətin yolları geridə qoyub bölmələrə çatanda bizi qarşılayan komandirlərin və əsgərlərimizin gözlərindəki doğmalığı, daxili nizam-intizamı yaxından müşahidə etmək imkanı qazandıq.



Bizi ilk salamlayan və bu mənəvi missiyamıza bələdçilik edən zabit **Qadir Muradov** oldu.

Hərbi formanın daxilində həm də dərin bir ziyalılıq, elmi dünyagörüşü daşıyan zabitlərimiz ordumuzun mənəvi sütunlarıdır desək, yanılmarıq. Ömrünün gənclik illərini elmə həsr edib, Azərbaycan Memarlıq və İnşaat Universitetində magistr dərəcəsinə qədər ucalan Qadir Muradovun həyat yolu, məhz bu vəhdətin bariz nümunəsidir. Müasir Azərbaycan zabitinin təkcə silahı ilə deyil, həm də yüksək intellekti ilə seçildiyini sübut edən bu gənc komandirin hərbi tərcümeyi-halı rəşadət səhifələri ilə zəngindir. 1989-cu ilin soyuq bir dekabr günündə Quba rayonunun Qonaqkənd qəsəbəsində dünyaya göz açan Qadir Akif oğlu Muradov 2015-ci ilin fevralında Təlim və Tədris Mərkəzində kursu uğurla başa vuraraq “leytenant” rütbəsi ilə ordu sıralarına qədəm qoyub. Bu gün iki övlad atası olan mayor Qadir Muradovun keçdiyi çətin və şərəfli döyüş yolundan, eləcə də əsgərləri ilə qurduğu mənəvi bağdan bəhs edərkən daxilindəki təmkinli qürur dərhal hiss olunurdu.

- Keçirdiyim xidmət illəri xalqımızın ən şərəfli mübarizə dövrünə təsadüf edir. Bir zabit kimi 2016-cı ilin Aprel döyüşlərində - yəni, böyük zəfərimizin ilk addımında, 2020-ci il sentyabrın 27-də Vətən müharibəsində, eləcə də 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatında iştirak etmişəm. Biz hərbi elmin və qələbənin dərslərini addım-addım keçdik. Aprel döyüşlərində təcrübə topladıq, Vətən müharibəsində tətbiq etdik, antiterror əməliyyatında isə nöqtəni qoyduq. Savaş meydanında qazanılan uğurlara görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə “Suqovuşanın azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olundum. Sinəmdəki bu təltiflər mənim üçün sadəcə bir mükafat deyil, canından keçən silahdaşlarımın, şəhidlərimizin mənəvi əmanətidir. Hazırda vəzifəmdən irəli gələrək əsas missiyam gənc əsgərlərimizin həm hərbi vərdişlərini təkmilləşdirmək, həm də onların mənəvi-psixoloji hazırlığını yüksək səviyyədə saxlamaqdır. Mən onlara sadəcə bir komandir kimi deyil, böyük bir qardaş, sirdaş kimi yanaşıram. Tez-tez onlarla bir araya gəlir, fərdi söhbətlər aparıram. Bu söhbətlərdə qazandığım döyüş təcrübəsini onlara ötürür, vətənpərvərliyin sadəcə sözdə deyil, məhz bu çətin postlarda ayıq-sayıq dayanmaqda olduğunu izah edirəm. Hər bir əsgərin iradəsini poladlaşdırmaq və daxilindəki məsuliyyət hissini artırmaq mənim ən böyük zabitlik borcumdur. Postlarımıza məktəblilərdən gələn təmiz, səmimi məktublar çatanda isə şəxsi həyatın keçirdiyi böyük həyəcanı sözlə ifadə etmək çətin olur. Bir zabit kimi uşaqların kiçik əlləri ilə yazdıqları sətirləri oxuyanda qəlbim fərəhlə dolur. O məktublar bizə arxa cəbhənin güvənini, xalqımızın sonsuz sevgisini bir daha hiss etdirir. Əsgərlərimizin vərəqləri oxuyarkən keçirdikləri qürur hissi qoruduqları Vətənin gələcək sahiblərinin sədasıdır. Biz bu gün də eyni sarsılmaz ruhla Vətənimizin keşiyindəyik və uşaqlarımızın məktublarda arzuladığı sülhü, aydın sabahları göz bəbəyimiz kimi qoruyuruq, - zabit dedi.



Zabitimizin bu mənəvi dəstəyi və açdığı qardaşlıq cığırı, çətin iqlim şəraitində xidmət edən gənc əsgərlərimizin də çıxışlarında özünü tam mənası ilə göstərirdi. Hər biri öz ixtisası üzrə vəzifə borcunu yerinə yetirən gənclərlə söhbətləşdikcə, onların məktəblilərdən gələn məktubları hansı böyük coşqu ilə qarşıladıqlarının şahidi olduq. Bölüyün gənc döyüşçülərindən olan əsgər **Elvin Zeynalov** daxilindəki məsuliyyəti bu səmimi sözlərlə bölüşdü:

- Şərur rayonunun Püsyan kəndində doğulub boya-başa çatmışam. Artıq doqquz aydır ki, əynimdə daşıdığım bu şərəfli geyimlə doğma torpaqlarımızın keşiyində dayanmışam. Biz elə bir tarixi dövrdə xidmət edirik ki, hər addımımızda igid şəhidlərimizin bizə qoyub getdiyi müqəddəs irsin məsuliyyətini daşıyırıq. Hərbi hissəyə yola düşəndə yaxınlarımın gözündə gördüyüm böyük güvən hissi bu gün də daxilimdəki inamı artırır. Azərbaycan Ordusunun bu gün nümayiş etdirdiyi yenilməz qətiyyət istənilən bədxah qüvvəni geri addım atmağa məcbur edir. Lakin bizim sahib olduğumuz bu sarsılmaz qüdrət sadəcə ən müasir hərbi texnika ilə ölçülmür. Ordumuzun ən böyük dayaq nöqtəsi xalqın, arxa cəbhənin bizə ötürdüyü tükənməz mənəvi enerjidir. Məktəblilərin göndərdiyi məktublardakı səmimi sətirləri oxuyarkən vətəndaşlıq yükünün dəyərini bir daha dərindən dərk etdim. Dövlətimizə və xalqımıza söz verirəm ki, ayıq-sayıqlığımızla bu sülhü və əmin-amanlığı son günümüzə qədər göz bəbəyimiz kimi qoruyacağıq.

Onunla eyni postda çiyin-çiyinə xidmət edən, hərbin sirlərinə yiyələnməyi özünə əsas hədəf seçən əsgər **Emin Abbasov** isə uşaqların göndərdiyi məktubların onlara necə böyük ruh yüksəkliyi verdiyindən bəhs etdi:

- Mən Naxçıvan şəhərindən hərbi xidmətə çağırılmışam. Qarşıma qoyduğum başlıca məqsəd nizam-intizamlı olmaq, döyüş vərdişlərinə yiyələnmək, bacarıqlı əsgər kimi formalaşmaqdır. Çətin iqlim şəraitində, uca zirvələrdə dayansaq da, dövlətimizin bizə göstərdiyi yüksək diqqəti hər an hiss edirik. Keçmiş zəfərlərimizin fəxrini daşıyan bir nəsil olaraq, azad nəfəs alan bu dağların mühafizəsi birbaşa bizim qismətimizə düşüb. Uşaqların kiçik əlləri ilə yazdıqları cümlələr bizə xatırlatdı ki, qoruduğumuz bu sərhədlər gələcəyin müstəqil sabahlarıdır. Bu məktublar bizə bitib-tükənməyən ruh yüksəkliyi bəxş etdi, qəlbimizi qəribə bir doğmalıq və coşqu ilə doldurdu. Bizə inanan o gənc nəsillərin etimadını doğrultmaq üçün gecə-gündüz fədakarlıqla, yorulmadan xidmətimizi davam etdirəcəyik.

Hərbi xidməti sadəcə bir vəzifə borcu kimi deyil, gənc nəsli mənəvi və fiziki cəhətdən böyüdən bir məktəb kimi görən əsgər **Rza Quliyev** isə gecə növbələrinin daxildə oyatdığı mənəvi duyğuları belə ifadə etdi:



- Culfa rayonunun Yaycı kəndinin yetirməsiyəm və artıq bir ildir ki, ön xətdə xidmətdəyəm. Hərbi həyat insanın daxili aləmini tamamilə dəyişir, onu çətinliklərə qarşı dözümlü edərək əsl xarakter məktəbinə çevrir. Burada xidmət edən hər kəs hərbi nizam-intizamı, vaxtın qədrini bilməyi və ən əsası yoldaşlıq fəlsəfəsini dərindən mənimsəyib püxtələşir. Məsuliyyət hissi insanın içindəki vətənpərvərlik duyğusunu sadəcə şüar olmaqdan çıxarıb, real bir yaşam tərzinə çevirir. Bir rabitəçi olaraq postlar arasındakı hər səsin, hər sözün arxasında bütöv bir xalqın təhlükəsizliyinin dayandığını bilirəm. Qulağımdakı hər siqnal Vətənin nəfəsidir. Yeniyetmələrin məktublarına cavab yazarkən kağız üzərinə yalnız qəlbimizdən keçən ən saf, ən səmimi düşüncələrimizi köçürdük. Çünki o körpə qəlblərin bizi özlərinə bir örnək, bir arxa bildiyini görmək insana fərqli bir mənəvi güc verir. Ən unudulmaz anlar isə dumanlı, soyuq hava şəraitində növbəyə duranda, uzaqlarda sayrışan kənd və şəhər işıqlarını seyr edərkən yaşanır. Sönməyən işıqlar bizə pıçıldayır ki, sən burada keşik çəkdiyin üçün evlərdə insanlar rahat uyuyur və gələcəyə ümidlə baxırlar.



Vətənin haradan başlanması və bu şərəfli borcun gənclərin mənəvi dünyasındakı rolu barədə fərqli bir baxış bucağı təqdim edən əsgər **Anar Əsgərli** öz yaşıdlarına müraciət edərək fikirlərini vurğuladı:

- Naxçıvan şəhərində böyümüşəm, 2025-ci il iyulun 25-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ordu sıralarına çağırılmışam. Hazırda mühəndis-istehkam bölüyünün tərkibində çətin və məsuliyyətli bir missiyanı çiyinlərimdə daşıyıram. Bir istehkamçı kimi borcum bu torpağın hər qarışını təhlükəsiz etməkdir. Şəhidlərimizin qanı ilə suvarılan bu torpaqlara indi dinc insanların köçməsi, uşaqların buralarda rahat addımlaması üçün bizim hər addımımız dəqiq və fədakar olmalıdır. Hər bir insan özlüyündə soruşur: “Vətən haradan başlanır?” Mənim üçün bu anlayış doğulub boya-başa çatdığım kiçik ocaqdan, valideyn xeyir-duasından və ailə sevgisindən qaynaqlanır. Doğmalarını qorumağı bacaran hər bir kəs, əslində elini, obasını və bütöv bir məmləkəti müdafiə etməyə tam hazır olan insandır. Hərbi xidmətə hazırlaşan bütün qardaşlarıma tövsiyə edirəm ki, bu dövrü həyatın sadəcə bir mərhələsi deyil, mənəvi yetkinləşmə dövrü kimi dəyərləndirsinlər. Məktəblilərdən gələn zərfləri açanda, sətirlər arasında gizlənən böyük inamı bütöv varlığımızla hiss etdik. Balaca qəlblərin bizə bəslədiyi bu sevgi qarşısında daxili məsuliyyətimiz bir qat daha artdı. Cavab məktubumda da qeyd etdiyim kimi, biz burada ayıq-sayıq dayandıqca, sizin sabahlarınız həmişə günəşli və aydın olacaq.



Postlardan, uca zirvələrdən geri qayıdarkən daxilimizdə böyük bir əminlik və sonsuz iftixar hissi var idi. Bu səfər bizə bir mənəvi təzadı - səngərin sərt, dumanlı, soyuq mühitdə uşaqların rəngli karandaşlarla yazdığı, bəlkə də üzərinə tank, bayraq şəkli çəkdiyi kağız vərəqlərinin doğurduğu istiliyi yaşatdı. Gördük ki, məktəblilərin göndərdiyi o sadə məktub vərəqlərindəki arzu və diləklər səngərdə sarsılmaz bir qətiyyətə, möhkəm bir mənəvi vəhdətə çevrildi. Bir tərəfdə canını Vətən müharibəsinin alovlarından keçirib qazandığı döyüş təcrübəsini öz əsgərlərinə ötürən zabit Qadir Muradov, digər tərəfdə isə Vətəni göz bəbəyi kimi qoruyan nizam-intizamlı əsgərlərimiz...

Əminik ki, nə qədər ki, ordu ilə arxa cəbhənin qəlbi eyni ahənglə vurur, nə qədər ki, xalqımızın duaları və balaca fidanlarımızın sevgisi bu uca zirvələri isidir, bu torpaqların əmin-amanlığı əbədi olacadır. Çünki Azərbaycanın müqəddəs torpaqları təkcə silahla deyil, həm də sarsılmaz bir inam, mənəvi bütövlük və qarşılıqlı sevgi ilə qorunur.

Məktəblilərimiz yay tətilinin imkanlarından yararlanaraq növbəti tədris ilinə böyük ruh yüksəkliyi ilə qayıdacaqlar. Onların üzlərinin daim gülməsi, özlərini əmin-amanlıqda hiss etmələri üçün yayın qızmar istisində, qışın sərt soyuğunda canla-başla Vətənin keşiyini çəkən hərbi qulluqçularımızın xidmətləri isə davam edəcək. Biz də öz layihəmizi yenidən davam etdirəcəyik.

Əsgərə məktub layihəsini həyata keçirməkdə bizə dəstək olan Əlahiddə Ümumqoşun Ordunun komandanlığına, hər zaman yanımızda olan zabitlərimizə, layihədə məktəblilərimizin iştirakını könüllü olaraq təmin edən Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbin direktoru Günel Quliyevaya, sinif rəhbərləri Leyla Əliyevaya və Anaxanım Axundovaya dərin təşəkkürümüzü bildiririk.

**Bəxtiyar ƏLİYEV**
**“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin mətbuat katibi**

*Heç kim unudulmur*

# Naxçıvanda şəhidlərin mövlud günləri qeyd edildi

Naxçıvan Muxtar Respublikasının müxtəlif bölgələrində Vətən uğrunda canından keçmiş igid şəhidlərimizin doğum günləri dərin ehtiramla yad edilib.

Naxçıvan şəhərində Vətən müharibəsin döyüşlərində şəhid olmuş baş leytenantlar Fuad Əlizadə və Raqib Hüseynovun doğum günləri münasibətilə anım tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan şəhər İcra Hakimiyyətinin səlahiyyətli nümayəndələri, Əlahiddə Ümumqoşun Ordunun və Daxili İşlər Nazirliyinin şəxsi heyəti, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təmsilçiləri, şəhid ailələri, döyüşdə yaralananlar və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov çıxış edərək, şəhid ailələrinə olan hörmət və ehtiramını bildirib. O, Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin hərb tariximizdə analoqu olmayan bir zəfər olduğunu qeyd edib, dövlətimiz tərəfindən şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən xüsusi diqqət və qayğıdan danışıb.







Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri, Heydər Əliyev adına Hərbi Liseyin müəllimləri, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin rəsmiləri və şəhid ailələrinin üzvləri çıxış ediblər. Şəhid baş leytenant Fuad Əlizadənin şücaətindən və keçdiyi şərəfli döyüş yolundan bəhs olunub. Bildirilib ki, o, 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid Fuad Əlizadənin anası Şəfa Əliyeva və baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova çıxış edərək, övladlarının xatirəsini əziz tutulduğuna görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə 2020-ci il sentyabrın 29-da Talış istiqamətində şəhid olan baş leytenant Raqib Hüseynovun həyat və döyüş yolundan da bəhs edilib. Qeyd olunub ki, o, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, həmçinin "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Məktəblilər şeirlər söylədikdən sonra şəhidlərin ruhuna dualar oxunub. Sonda iştirakçılar baş leytenant Raqib Hüseynovun məzarını ziyarət edərək, önünə əklil və gül dəstələri düzüblər.

* * *

Eyni zamanda, Culfa rayonunun Yaycı kəndində Vətən uğrunda canından keçən şəhid Sənan Hidayət oğlu Məmmədov və Birinci Qarabağ müharibəsində itkin düşərək sonradan şəhidlik statusu alan igid tankçı Məzahir Ramazan oğlu Nəcəfov da doğum günlərində anılıblar.

Anım mərasimində Culfa rayon İcra Hakimiyyətinin əməkdaşları, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təmsilçiləri, rayon ictimaiyyətinin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə 1998-ci il iyunun 28-də Yaycı kəndində dünyaya göz açan, 2018-ci il yanvarın 11-də düşmən təxribatı nəticəsində şəhid olan Sənan Məmmədovun məzarını ziyarət ediblər. Şəhidin ruhuna dualar oxunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Daha sonra anım tədbiri cəsur tankçı Məzahir Nəcəfovun xatirəsinə ucaldılmış bulaq kompleksində davam edib. İştirakçılar onun Birinci Qarabağ müharibəsindəki şərəfli döyüş yolundan bəhs edərək bildiriblər ki, tankçı kimi döyüşə qatılan Məzahir "Horadiz" əməliyyatında böyük rəşadət göstərib. Gənc əsgər sonuncu dəfə 1994-cü il yanvarın 27-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə görünüb və bu tarixdən etibarən itkin düşüb.

Ziyarət zamanı şəhidlərimizin keçdikləri şərəfli ömür yolu yad edilib və xatirə fotoları çəkdirilib.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**



*Yeni nəşrlər*

## "Azərbaycanın hərb tarixi. IV hissə (1991-2025-ci illər: Xronoloji xülasə)" kitabı çapdan çıxıb

"Azərbaycanın hərb tarixi. IV hissə (1991-2025-ci illər: Xronoloji xülasə)" adlı kitab işıq üzü görüb.

AZƏRTAC xəbər verir ki, geniş oxucu üçün nəzərdə tutulan 364 səhifəlik vəsait Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunda hazırlanıb. Kitabın müəllifləri Milli Müdafiə Universitetinin professoru, ehtiyatda olan birinci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyev və Milli Müdafiə Universitetinin dosenti Ramil İbrahimovdur.

Oxuculara təqdim olunan bu kitabın dördüncü hissəsində XX əsrin sonunda Azərbaycanın əldə etdiyi müstəqilliyi dövründə (1991–2025-ci illər) baş vermiş hərbi-siyasi hadisələr və ordu quruculuğuna dair faktlar ümumiləşdirilərək tədqiq olunub. İki fəsildən ibarət vəsaitin birinci fəslində 1993–2003-cü illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasında hərbi quruculuğun formalaşması və möhkəmləndirilməsi məsələləri xüsusi yer tutur. Burada hərbi təhsil sistemində aparılan islahatlar və Azərbaycan Ordusu üçün milli zabit kadrlarının hazırlanması işi sistemli şəkildə təhlil edilir.




Zəngin arxiv sənədləri əsasında hazırlanan vəsaitin ikinci fəslində 2024-2025-ci illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətin hərbi potensialının gücləndirilməsi məqsədilə ordu quruculuğunda aparılan davamlı islahatlar və onun inkişaf mərhələləri, yenidən formalaşan xüsusi təyinatlı təhsil müəssisələrinin peşəkar kadr hazırlığı sahəsində fəaliyyəti əksini tapıb. Kitabda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində apardığı döyüş əməliyyatları və ölkənin ərazilərinin işğaldan azad olunması xronoloji ardıcıllıqla ayrıca verilib. Həmçinin Vətən müharibəsindən sonra Azərbaycan Ordusunda və hərbi təhsil istiqamətində aparılan dəyişikliklər, yeni hərbi birləşmələrin və ilk növbədə, komando qüvvələrinin formalaşması, Milli Müdafiə Universitetinin yaradılması, onun tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin peşəkar ali təhsilli zabit və elmi-pedaqoji kadrların hazırlığı prosesi də əksini tapıb.

Kitab Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xüsusi təyinatlı təhsil müəssisələrində "Azərbaycanın hərb tarixi" fənnini öyrənən kursantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

## Kursantlar Heydər Əliyev Mərkəzini ziyarət ediblər

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun kursantları milli-mənəvi dəyərlərin təbliği, dövlətçilik ənənələrinin öyrənilməsi və dünyagörüşlərinin genişləndirilməsi məqsədilə Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Milli Müdafiə Universiteti xəbər verir ki, ekskursiya zamanı kursantlar Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsi, Azərbaycanın dövlətçilik tarixi və müasir inkişafını əks etdirən ekspozisiyalarla tanış olub, tarixi eksponatlar və multimedia təqdimatlarını maraqla izləyiblər.

Bu ziyarət kursantların vətənpərvərlik ruhunun möhkəmlənməsinə, dövlətçilik ənənələri və milli irs haqqında biliklərinin zənginləşdirilməsinə mühüm töhfə verir.





Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şirinov Əli Səbuhi oğluna verilmiş SX № 0926007 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Nadirov Ələkbər Həsən oğluna verilmiş MV № 088020 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qədirov Tural Məbud oğluna verilmiş MV № 161186 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Emil MURADLI | Lisenziya № 361 Sifariş № 660 Nüsxə 3653 |